PALATANIN TARİXİ

Formalaşmanın hüquqi zəmini

Azərbaycan Respublikasında qiymətləndirmə peşəsinin inkişafı müstəqillikdən sonra bazar münasibətlərinin genişlənməsi, daşınmaz əmlak dövriyyəsi, özəlləşdirmə və maliyyə münasibətlərinin inkişafı ilə əlaqəli olmuşdur. 25 iyun 1998-ci il tarixli əvvəlki "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun bu sahənin ilkin qanunvericilik bazasının tərkib hissəsi idi. 8 dekabr 2023-cü il tarixli 1052-VIQ nömrəli yeni Qanun peşənin təşkilati, iqtisadi və hüquqi əsaslarını yenidən müəyyən etdi.

Yeni peşəkar özünüidarəetmə modelinə keçid

Yeni Qanunun 18.1-ci maddəsi Qiymətləndiricilər Palatasını qiymətləndiricilərin məcburi üzvlüyü əsasında yaradılan, özünüidarəetmə prinsipi ilə fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxs kimi müəyyən etdi. Qanunun 27-ci maddəsi təsis prosesini, o cümlədən təşkilat komitəsini, ixtisas imtahanlarını, təsis hüququnu qazanan qiymətləndiricilərin iştirakını və idarəetmə orqanlarının seçilməsini nəzərdə tutdu.

Palatanın təsis edilməsi və fəaliyyətə başlaması

Qanunun 27.1.4. saylı maddəsinə əsasən (Qiymətləndiricilər Palatası təsis edilərək dövlət qeydiyyatına alındıqdan sonra Qiymətləndiricilər Palatası, onun Rəyasət Heyəti və Qiymətləndiricilərin İntizam Komissiyası fəaliyyətə başlamış hesab olunur) 27 yanvar 2025-ci il Palatanın rəsmi fəaliyyətin başlanması tarixi kimi sayılır.

İdarəetmə və peşəkar fəaliyyətin təşkili

Qanunun 19-cu maddəsi Palatanın ali idarəetmə orqanını Ümumi Yığıncaq, icra orqanını isə Rəyasət Heyəti kimi müəyyən edir. Qanunun 20-ci maddəsində Rəyasət Heyətinin tərkibi və funksiyaları, 18.4-cü maddəsində isə Palatanın əsas səlahiyyətləri göstərilir. Palata peşəkar reyestr, etik davranış, metodiki təminat, əlavə təhsil, müraciətlərə baxılması və üzvlərin hüquqlarının müdafiəsi istiqamətlərində fəaliyyət göstərir.

İnkişaf istiqamətləri

Palatanın institusional inkişafı milli qiymətləndirmə metodologiyasının təkmilləşdirilməsi, IVS kimi beynəlxalq standartların öyrənilməsi, üzvlərin peşəkar hazırlığı, bazar məlumatlarının təhlili, keyfiyyət və intizam mexanizmlərinin inkişafı, elektron xidmətlərin mərhələli qurulması ilə əlaqələndirilir.

Hüquqi əsaslar və mənbələr

Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 08.12.2023,

№1052-VIQ. https://president.az/az/articles/view/62958

Qanunun tətbiqi barədə Prezidentin Fərmanı, 30.12.2023.

https://president.az/az/articles/view/62959